*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2006-cı il 7 iyun tarixli 28/106 saylı Qərarı ilə təsdiq edilmiş, 2011-ci il 23 avqust tarixli 6/15-1 saylı, 2014-cü il 29 may tarixli 1/6 saylı və 2019-cu il 2 oktyabr tarixli 5/18 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

# Bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qruplarının yaradılması, namizədlərin öz təşəbbüsü ilə və ya seçicilərin təşəbbüs qrupları tərəfindən irəli sürülməsi qaydaları haqqında

# T Ə L İ M A T

Azərbaycan Respublikasında bələdiyyə seçkilərində vətəndaşların öz təşəbbüsü ilə və ya aktiv seçki hüququ olan vətəndaşların yaratdıqları təşəbbüs qrupları tərəfindən bələdiyyə üzvlüyünə namizədin və ya namizədlərin irəli sürülməsi Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 53-cü, 212-ci, 214-cü maddələri və bu Təlimatla nizama salınır.

## 1. Ümumi müddəalar

1.1. Bələdiyyə seçkilərində namizədlər həmin seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra irəli sürülür.

1.2. Passiv seçki hüququna malik olan və Seçki Məcəlləsinin 212-ci maddəsinin tələblərinə cavab verən vətəndaşlar onların öz təşəbbüsü ilə, habelə seçicilərin təşəbbüs qrupları tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada bələdiyyə üzvlüyünə namizəd irəli sürülə bilər.

## 2. Seçicilərin təşəbbüs qrupunun yaradılması və bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi qaydası

2.1. Namizədi irəli sürən subyektlərdən biri kimi seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədliyin irəli sürülməsi qanunvericilikdə və bu Təlimatda nəzərdə tutulmuş qaydada nizama salınır.

2.2. Seçki Məcəlləsinin 215-ci maddəsində nəzərdə tutulan qaydada əhalinin sayına nisbətdə:

əhalisi 99.999-dan çox olan bələdiyyədə - üzvlərinin sayı azı 30 nəfərdən,
əhalisi 49.999-dan çox olan bələdiyyədə - üzvlərinin sayı azı 25 nəfərdən,
əhalisi 19.999-dan çox olan bələdiyyədə - üzvlərinin sayı azı 20 nəfərdən,
əhalisi 9.999-dan çox olan bələdiyyədə - üzvlərinin sayı azı 15 nəfərdən,
əhalisi 4.999-dan çox olan bələdiyyədə - üzvlərinin sayı azı 10 nəfərdən,
əhalisi 4.999-dan az olan bələdiyyədə - üzvlərinin sayı azı 5 nəfərdən ibarət təşəbbüs qrupu yaradıla bilər.

Bunun üçün təşəbbüs qrupunu yaratmaq istəyən seçicilər öz yığıncağını keçirməlidirlər. Təşəbbüs qrupu yaratmaq istəyən seçicilərin müvafiq seçki dairəsinin ərazisində yaşaması faktı əsas götürülür. Təşəbbüs qrupu yaratmaq istəyən vətəndaş və ya vətəndaşlar tərəfindən bələdiyyə qurumunun rəhbərliyinə və ya ərazi üzrə icra hakimiyyətinin yerli nümayəndəsinə yığıncaq keçirmək üçün yer ayrılması barədə yazılı müraciət edilə bilər. Həmçinin seçicilərin təşəbbüs qrupunun yığıncağı seçicilərin yaşayış yeri üzrə, icra və bələdiyyə qurumları, o cümlədən digər hüquqi şəxslərin ərazi və binalarında keçirilə bilər. Müvafiq yer müəyyənləşdirildikdən sonra təşəbbüs qrupu yaratmaq istəyən seçicilərə yığıncağın yeri və vaxtı barədə məlumat verilir.

2.3. Yığıncaqda aşağıdakı məsələlər müzakirə olunur:

2.3.1. bu Təlimatın 2.2-ci bəndində göstərilən qaydada seçicilərin təşəbbüs qrupunun yaradılması və adlandırılması;

2.3.2. qrupu təmsil edəcək şəxsin (təşəbbüs qrupunun nümayəndəsi) – müəyyən edilməsi (bu şəxs iclasın sədri və ya katibi ola bilər);

2.3.3. bələdiyyə üzvlərinin sayından az və ya həmin sayda namizədlərin irəli sürülməsi;

2.3.4. namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün dairə seçki komissiyasına bildirişlə müraciət edilməsi.

2.4. Yığıncağın gündəliyinə çıxarılaraq müzakirə edilmiş hər bir məsələ barədə qərar qəbul olunur və yığıncağın protokolu tərtib edilir. Protokolu iclasın sədri və katibi imzalayır. İclasın protokolunun həmin qurumların, o cümlədən iclasın keçirildiyi yerin məxsus olduğu hüquqi şəxslərin möhürü ilə möhürlənməsi də mümkündür.

**3. Bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülməsi üçün müvafiq dairə seçki komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:**

3.1. seçicilərin təşəbbüs qrupunun yaradılması və namizədliyin irəli sürülməsi barədə yığıncağın protokolu (Təlimata 3 saylı əlavə);

3.2. hər bir namizədin irəli sürülməsinə təşəbbüs edilməsi barədə ayrı-ayrılıqda tərtib edilmiş bildiriş (Təlimata 1A saylı əlavə);

3.3. bələdiyyə üzvlüyünə namizədin öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);

3.4. namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi (Bu Təlimatın 5, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və

referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimatın 3 "b" saylı əlavəsi).

3.5. Namizəd və ya namizədlərin siyasi mənsubiyyətinə dair məlumat varsa, bu barədə təsdiqedici sənəd verilməlidir. Belə halda, namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, bu bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz.

3.6. Seçicilərin təşəbbüs qrupunun irəli sürdüyü bələdiyyə üzvlüyünə namizəd və ya namizədlərin sənədlərini müvafiq dairə seçki komissiyasına seçicilərin təşəbbüs qrupunun nümayəndəsi, habelə namizəd və ya onun səlahiyyətli nümayəndəsi təqdim edə bilər.

3.7. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış həmin sənədləri təqdim etmiş şəxsə (təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinə, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə) verilir (Təlimata 4 saylı əlavə).

3.8. Dairə seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edir.

**4. Öz təşəbbüsü ilə bələdiyyə üzvlüyünə namizədliyini irəli sürən vətəndaş müvafiq dairə seçki komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:**

4.1. bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsinə dair bildiriş (Təlimata 1 saylı əlavə);

4.2. bələdiyyə üzvlüyünə namizədin öhdəlik ərizəsi (Təlimata 2 saylı əlavə) (ərizədə bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülmüş şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yerinin ünvanı, təhsili, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), məhkumluğuna, vətəndaşlığına və başqa dövlətlər qarşısında öhdəliyinin olub-olmamasına dair məlumatlar, habelə bələdiyyə üzvü seçiləcəyi halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyi barədə öhdəliyi göstərilməlidir);

4.3. namizəd tərəfindən səlahiyyətli nümayəndə təyin edilibsə, həmin səlahiyyətli nümayəndənin notariat qaydasında təsdiq edilmiş vəkalətnaməsi (Bu Təlimatın 5, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında" Təlimatın 3 "b" saylı əlavəsi);

4.4. namizəd öz ərizəsində siyasi mənsubiyyətinə dair məlumat daxil edibsə, bu barədə təsdiqedici sənəd. Belə halda, namizəd mənsub olduğu siyasi partiyanın 5 sözdən çox olmayan adla adlandırılmasını müvafiq seçki komissiyası ilə razılaşdırır. Ərizədə göstərilmiş siyasi partiya namizədi öz

sıralarından xaric edibsə və müvafiq seçki komissiyasına bildiriş göndəribsə, bildiriş alındıqdan sonra həmin namizədlə əlaqədar siyasi partiyanın adından istifadə edilə bilməz.

4.5. Dairə seçki komissiyasına təqdim edilmiş sənədlərin alınması barədə yazılı arayış namizədə və ya onun səlahiyyətli nümayəndəsinə verilir (Təlimata 4 saylı əlavə).

4.6. Dairə seçki komissiyası təqdim edilmiş sənədlərə 5 gün müddətində baxır, namizədə və ya onun səlahiyyətli nümayəndəsinə namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə qərar təqdim edir.

*Təlimata 1 saylı əlavə*

**Bələdiyyə seçkilərində Azərbaycan Respublikası vətəndaşının öz təşəbbüsü ilə bələdiyyə üzvlüyünə namizədliyini irəli sürməsi haqqında**

**B İ L D İ R İ Ş**

Mən, ________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

__________________________________________________________malik olan,
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)*

___________________________________________işləyən (fəaliyyət göstərən),
[*əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)*]

"____"______________ ____ ildə anadan olmuş Azərbaycan Respublikasının
*(doğum tarixi)*

vətəndaşı ________________________________________________________
*(namizədin soyadı, adı, atasının adı)*

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-cü, 212-ci və 214-cü maddələrinə uyğun olaraq _______________________________ təyin olunmuş
*(seçkilərin keçiriləcəyi tarix)*

bələdiyyə seçkilərində _________________________________ bələdiyyəsinin
*(bələdiyyənin adı)*

üzvlüyünə öz namizədliyimi irəli sürürəm.

_________________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

______________________________ malik olan __________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)* *(soyadı, adı, atasının adı)*

______________________ tərəfimdən səlahiyyətli nümayəndə təyin edilmişdir.*

Bildirişə öhdəlik ərizəsi əlavə olunur.

**Namizəd** ______________ ___________________________
*(imza)* *(inisialı və soyadı)*

və ya

**səlahiyyətli nümayəndə** ______________ ___________________________
*(imza)* *(inisialı və soyadı)*

"_____" ______________________20___ il
*(bildirişin verilmə tarixi)*

**Qeyd:** *Bu bildirişin surəti Azərbaycan Respublikası Seçki Məcəlləsinin 226.3-cü maddəsinə uyğun olaraq dairə seçki komissiyası tərəfindən təsdiq edilərək namizədə və ya onun səlahiyyətli nümayəndəsinə verilir.*

__________

**Bu sətir namizədin səlahiyyətli nümayəndəsi təyin edildikdə doldurulur.*

___saylı_____________seçki dairəsinin dairə seçki komissiyasına
________________________**təyin olunmuş bələdiyyə seçkilərində**
*(seçkilərin keçiriləcəyi tarix)*

**seçicilərin təşəbbüs qrupu tərəfindən bələdiyyə üzvlüyünə namizəd irəli sürülməsi haqqında**

**B İ L D İ R İ Ş**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 53-cü, 212-ci və 214-cü maddələrinə uyğun olaraq biz – seçicilərin təşəbbüs qrupunun üzvləri:

| **Sıra sayı** | **Təşəbbüsçünün soyadı, adı, atasının adı** | **Doğum tarixi** | **Yaşayış yerinin ünvanı** | **Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi** | **İmza və tarix** |
|---|---|---|---|---|---|
| 1 | | | | | |
| 2 | | | | | |
| ... | | | | | |
| 30 | | | | | |
| ... | | | | | |

Azərbaycan Respublikasının vətəndaşı ____________________________
*(namizədin soyadı, adı, atasının adı, doğum tarixi,*

______________________________________________________________
*yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi, əsas iş və ya xidmət yeri,*

______________________________________________________________
*tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü))*

_______________________________ təyin olunmuş bələdiyyə seçkilərində
*(seçkilərin keçiriləcəyi tarix)*

____________________ bələdiyyəsinin üzvlüyünə namizədliyini irəli sürürük.
*(bələdiyyənin adı)*

____________________ yaşayan, _____________________________ malik
*(yaşayış yerinin ünvanı)* *(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)*

_____________________ təşəbbüs qrupunun nümayəndəsi təyin edilmişdir.
*(soyadı, adı, atasının adı)*

Təşəbbüs qrupu iclasının protokolu və namizədin öhdəlik ərizəsi əlavə olunur.

"___" __________________20___ il
*(bildirişin verilmə tarixi)*

**Qeyd:** *Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələblərinin təmin olunması məqsədilə bu bildirişə namizədin 3x4 sm ölçüdə 3 ədəd fotoşəkli (fotoşəklin arxasında həmin şəxsin şəxsiyyətini müəyyən etməyə imkan verən qeydlər aparılır) əlavə olunmalıdır.*

*Təlimata 2 saylı əlavə*

_____saylı______________________
seçki dairəsinin dairə seçki komissiyasına
____________________ bələdiyyəsinin
*(bələdiyyənin adı)*
üzvlüyünə namizədliyi irəli sürülmüş vətəndaşın

## Ö H D Ə L İ K   Ə R İ Z Ə S İ

Mən, “_____”_______________ ildə anadan olmuş, _______________
*(doğum tarixi)* *(yaşayış yerinin ünvanı)*
_________________________ yaşayan, ____________________ təhsilli,

__________________________________________________ malik olan,
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi)*
_____________________________________ işləyən (fəaliyyət göstərən),
[*əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü)*]
___________________________________ bildirirəm ki, ödənilməmiş və ya
*(namizədin soyadı, adı, atasının adı)*
üzərimdən götürülməmiş məhkumluğum ___________________________
*(yoxdur / vardır)*
Ödənilməmiş və ya üzərindən götürülməmiş məhkumluğu olduqda:
___________________________________________________________
*(Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin*
___________________________________________________________
*adı və nömrəsi, xarici ölkədə cinayət məsuliyyəti yaradan əməl olmuşdursa*
___________________________________________________________
*və bu haqda qanuni qüvvəyə minmiş məhkəmə hökmü çıxarılmışdırsa*
___________________________________________________________
*və bu əməl Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan,*
__________________________________________________________ .
*cinayət məsuliyyəti yaradırsa xarici ölkənin müvafiq qanununun adı)*

Seçkilərdə iştirak etmək hüququna malikəm. Azərbaycan Respublikasının vətəndaşıyam, ikili vətəndaşlığım və başqa ölkələr qarşısında öhdəliklərim _______________________.
*(yoxdur / vardır)*

İkili vətəndaşlığı və ya başqa ölkələr qarşısında öhdəliyi olduqda:
___________________________________________________________
*(həmin ölkənin adı və öhdəliyin məzmunu)*
___________________________________________________________

___________________________tarixdə keçiriləcək bələdiyyə seçkilərində
*(seçkilərin keçiriləcəyi tarix)*

bələdiyyə üzvlüyünə namizədliyimin irəli sürülməsinə etiraz etmirəm və bələdiyyə üzvü seçiləcəyim halda, həmin vəzifə ilə uzlaşmayan fəaliyyətə xitam verəcəyimi öhdəmə götürürəm.

"___"____________20___ il ________ ________________________

*(imza)* *(inisialı və soyadı)*

**Qeyd:** *Seçki Məcəlləsinin 40.15-ci maddəsinin tələblərinin təmin olunması məqsədilə bu öhdəlik ərizəsinə namizədin 3x4 sm ölçüdə 3 ədəd fotoşəkli əlavə olunmalıdır.*

*Təlimata 3 saylı əlavə*

**Bələdiyyə seçkilərində seçicilərin təşəbbüs qrupunun yaradılması və bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi üzrə yığıncağın**

**P R O T O K O L U**

______________________________ "____" ____________20___ il.
*(yığıncağın keçirildiyi yer – rayon, şəhər, şəhərdə rayon, qəsəbə, kənd)*

Yığıncaqda iştirak etdilər: ________ nəfər
*(rəqəmlə)*

Yığıncağın sədri və katibinin seçilməsi məsələsinə baxıldı.

Yığıncağın sədri vəzifəsinə______________________________________,
*[(namizədin(lərin) soyadı, adı, atasının adı)]*
katibi vəzifəsinə__________________________________________namizədliyi
*[(namizədin(lərin) soyadı, adı, atasının adı)]*
irəli sürüldü.

Yığıncağın sədri ____________________________________________,
*(soyadı, adı, atasının adı)*
Yığıncağın katibi _______________________________________seçildi.
*(soyadı, adı, atasının adı)*
Səsvermənin nəticəsi:

lehinə ____________ __________________________________
*(rəqəmlə)* *(sözlə)*
əleyhinə ____________ __________________________________
*(rəqəmlə)* *(sözlə)*
bitərəf ____________ __________________________________
*(rəqəmlə)* *(sözlə)*

**G ü n d ə l i k:**

1. Seçicilərin təşəbbüs qrupunun yaradılması və ona ad verilməsi.
2. Təşəbbüs qrupu nümayəndəsinin seçilməsi (bu şəxs iclasın sədri və ya katibi ola bilər).
3. Bələdiyyə üzvlüyünə namizədliyin irəli sürülməsi.
4. Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün dairə seçki komissiyasına bildirişlə müraciət edilməsi.

Səsvermənin nəticəsi:

lehinə ____________ ________________________________
(rəqəmlə) (sözlə)

əleyhinə ____________ ________________________________
(rəqəmlə) (sözlə)

bitərəf ____________ ________________________________
(rəqəmlə) (sözlə)

Yığıncağın sədri gündəlikdə olan məsələlər barədə yığıncaq iştirakçılarını məlumatlandırdı və bu məsələlər üzrə çıxış edənlərə söz verdi.

**Çıxış etdilər:**

1.________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
________________________________________________________

2.________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
________________________________________________________

3.________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
________________________________________________________

4.________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
________________________________________________________

5.________________________________________________________
*(çıxış edənin soyadı, adı, atasının adı və çıxışın qısa məzmunu)*
________________________________________________________

Təşəbbüs qrupu üzvlərinin, qrupun nümayəndəsinin və bələdiyyə üzvlüyünə namizədin namizədliyi irəli sürüldü.

Buna zərurət olarsa, namizədlərin soyadı, adı, atasının adı (qərarların qəbul edilməsi ardıcıllığına uyğun olaraq):

1.
2.
...

**Qeyd:** *zərurət olarsa, bələdiyyə üzvlüyünə namizədlərin siyahısı bu protokola əlavə edilmiş formanı*[1] *doldurmaqla tərtib edilməli və Protokola əlavə olunmalıdır.*

**Qərara alındı:**

1. Aşağıdakı tərkibdə təşəbbüs qrupu yaradılsın və _______________
*(təşəbbüs qrupunun adı)*
_________________________________________________adlandırılsın:

| Sıra sayı | Təşəbbüsçünün soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | İmza | Tarix |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| ... | | | | | | |
| 30 | | | | | | |
| ... | | | | | | |

**Qeyd:** *təşəbbüs qrupu üzvlərinin siyahısı bu protokola əlavə edilmiş formanı[2] doldurmaqla tərtib edilməli və Protokola əlavə olunmalıdır.*

Səsvermənin nəticəsi:

lehinə ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

əleyhinə ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

bitərəf ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

2. _____________________________________ təşəbbüs qrupunun
*(soyadı, adı, atasının adı)*
nümayəndəsi seçilsin.

Səsvermənin nəticəsi:

lehinə ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

əleyhinə ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

bitərəf ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

3. Təşəbbüs qrupu tərəfindən ___________________________________
*(namizədin soyadı, adı, atasının adı)*
bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülsün.

Səsvermənin nəticəsi:

lehinə ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

əleyhinə ___________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*

bitərəf ____________ ____________________________________
(rəqəmlə) (sözlə)

4. İrəli sürülən namizədliyin təsdiq olunması üçün dairə seçki komissiyasına bildirişlə müraciət edilsin.

Səsvermənin nəticəsi:

lehinə ____________ ____________________________________
(rəqəmlə) (sözlə)
əleyhinə ____________ ____________________________________
(rəqəmlə) (sözlə)
bitərəf ____________ ____________________________________
(rəqəmlə) (sözlə)

Yığıncağın sədri _____________ _________________________________
(imza) (soyadı, adı, atasının adı)
Yığıncağın katibi _____________ _________________________________
(imza) (soyadı, adı, atasının adı)

**Qeyd:** *seçicilərin təşəbbüs qrupunun yığıncağı idarədə, təşkilatda, müəssisədə keçirilirsə, yığıncağın protokolunun idarənin, təşkilatın, müəssisənin möhüründən istifadə etməklə, yığıncaq yaşayış yeri üzrə keçirilirsə, yığıncağın protokolunun icra nümayəndəliyinin, mənzil istismar sahəsinin, yaxud müvafiq bələdiyyə qurumunun möhüründən istifadə etməklə təsdiq olunması da mümkündür.*

| Bələdiyyə üzvlüyünə namizədin soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə, (bu olmadıqda – fəaliyyət növü) | Təhsili | Tarix |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

[1] *Protokola əlavə*

| Sıra sayı | Təşəbbüsçünün soyadı, adı, atasının adı | Doğum tarixi | Yaşayış yerinin ünvanı | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriya və nömrəsi | İmza | Tarix |
|---|---|---|---|---|---|---|
| 1 | | | | | | |
| 2 | | | | | | |
| 3 | | | | | | |
| 4 | | | | | | |
| 5 | | | | | | |
| 6 | | | | | | |
| 7 | | | | | | |
| 8 | | | | | | |
| 9 | | | | | | |
| 10 | | | | | | |
| 11 | | | | | | |
| 12 | | | | | | |
| 13 | | | | | | |
| 14 | | | | | | |
| 15 | | | | | | |
| 16 | | | | | | |
| 17 | | | | | | |
| 18 | | | | | | |
| 19 | | | | | | |
| 20 | | | | | | |
| 21 | | | | | | |
| 22 | | | | | | |
| 23 | | | | | | |
| 24 | | | | | | |
| 25 | | | | | | |
| 26 | | | | | | |
| 27 | | | | | | |
| 28 | | | | | | |
| 29 | | | | | | |
| 30 | | | | | | |
| ... | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

[2]*Protokola əlavə*

*Təlimata 4 saylı əlavə*

# A R A Y I Ş

“____”_____________ 20___ il                                   Saat ______

Verilir_____________________________________________________
*(sənədləri təqdim edən şəxsin soyadı, adı, atasının adı)*

ondan ötrü ki, o, həqiqətən_________________________________________
*(namizədin soyadı, adı, atasının adı)*

bələdiyyə üzvlüyünə namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi üçün aşağıdakı sənədləri ____ saylı ______________________________ seçki
*(seçki dairəsinin adı)*

dairəsinin dairə seçki komissiyasına təqdim etmişdir.

1.

2.

3.

4.

5.

6.

________________________ __________ __________________________
*(sənədi təqdim edən şəxsin statusu)* *(imzası)* *(soyadı, adı, atasının adı)*

M.Y

________________________ __________ __________________________
*(sənədi qəbul edən şəxsin vəzifəsi)* *(imzası)* *(soyadı, adı, atasının adı)*

**Qeyd:** *Sənədləri dairə seçki komissiyasına namizəd, onun səlahiyyətli nümayəndəsi və ya təşəbbüs qrupunun nümayəndəsi təqdim edə bilər.*
*Bu arayış 2 nüsxədən ibarət tərtib edilməli, 1 nüsxəsi dairə seçki komissiyasında qalmalı, digər nüsxəsi isə sənədləri təqdim edən şəxsə verilməlidir.*

*Təlimata 5 saylı əlavə*

**V Ə K A L Ə T N A M Ə**

Mən,___________________________________________yaşayan,
*(yaşayış yerinin ünvanı)*
_________________________________namizəd (qeydə alınmış namizəd)
*(təyin edilmiş seçkilərin adı)*
__________________________________________________malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*
__________________________________________________________
*(soyadı, adı, atasının adı)*
_____________________________________________________yaşayan,
*(səlahiyyətli nümayəndənin yaşayış yerinin ünvanı)*
__________________________________________________malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi)*
__________________________________________________________
*(iş yeri, vəzifəsi və ya xidmət yeri (bunlar olmadıqda – fəaliyyət növü)*
__________________________________________________________
*(soyadı, adı, atasının adı)*

“____”__________ 20___ il tarixə təyin edilmiş _______________________
*(seçkinin adı)*
seçkilərində mənim səlahiyyətli nümayəndəm qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirməyi həvalə edirəm.

_____________ ________________________________________________
*(imza)* *(namizədin (qeydə alınmış namizədin) soyadı, adı və atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*
*3. Bu əlavə “Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinin statusu haqqında” Təlimatın 3 “b” saylı əlavəsidir.*